**AZƏRBAYCAN RESPUBLİKASI ƏDLİYYƏ NAZİRLİYİ KOLLEGİYASININ QƏRARI**

**QƏRAR № 29-N**

**Bakı şəhəri** **“29” noyabr 2012-ci il**

**“Ədliyyə Nazirliyinə elektron müraciət üzrə inzibati reqlament”in təsdiq edilməsi barədə**

“Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 23 may tarixli 429 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 6 iyul tarixli 676 nömrəli Fərmanının icrası məqsədi ilə “Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə”nin 19-cu bəndinə əsasən Kollegiya

**QƏRARA ALIR:**

1. “Ədliyyə Nazirliyinə elektron müraciət üzrə inzibati reqlament” təsdiq edilsin (əlavə olunur).
2. Bu Qərarın Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi təmin olunsun (A.Əliyev).
3. Qərar aidiyyəti ədliyyə orqanlarına göndərilsin.

**Azərbaycan Respublikasının**
**ədliyyə naziri**
**I dərəcəli dövlət ədliyyə müşaviri** **Fikrət Məmmədov**

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi
Kollegiyasının 2012-ci il 29 noyabr tarixli 29-N
nömrəli Qərarı ilə təsdiq edilmişdir

**Ədliyyə Nazirliyinə elektron müraciət**
**üzrə inzibati reqlament**

**1. Ümumi müddəalar**

**1.1. Elektron xidmətin adı:** Ədliyyə Nazirliyinə elektron müraciət.

**1.2. Elektron xidmətin məzmunu:** *Vətəndaşların ərizə, şikayət və təkliflərinin elektron qaydada qəbulundan ibarətdir*[1]

***1.3. Elektron xidmətin göstərilməsinin hüquqi əsası:***

*1.3.1. “Vətəndaşların müraciətləri haqqında” 2015-ci il 30 sentyabr tarixli 1308-IVQ nömrəli Azərbaycan Respublikası Qanunun;*

*1.3.2. Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 391 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə”nin 9.56-cı bəndi;*

*1.3.3. "Dövlət orqanlarının və Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılan publik hüquqi şəxslərin elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 23 may tarixli 429 nömrəli Fərmanının 2-ci hissəsi;*

*1.3.4. Nazirlər Kabinetinin 24 noyabr 2011-ci il tarixli 191 nömrəli Qərarı ilə təsdiq edilmiş "Mərkəzi icra hakimiyyəti orqanları və Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılan publik hüquqi şəxslər tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları" və "Elektron xidmət növlərinin Siyahısı"nın 3.17-ci bəndi;*

*1.3.5. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 23 iyun tarixli 950 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət və bələdiyyə orqanlarında, dövlət və bələdiyyə mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə və ya bələdiyyəyə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında vətəndaşların müraciətləri ilə bağlı kargüzarlığın aparılması Qaydası"nın 2-ci və 3-cü hissələri;*

*1.3.6. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 23 iyun tarixli 951 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında vətəndaşların müraciətləri ilə bağlı kargüzarlığın aparılmasına nəzarətin həyata keçirilməsi Qaydası"nın 2-ci hissəsi*[2]

**1.4. Elektron xidməti göstərən dövlət qurumunun adı:** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi

**1.5. Elektron xidmətin digər icraçıları:** Yoxdur.

**1.6. Elektron xidmətin avtomatlaşdırılma səviyyəsi:** Elektron xidmət tam avtomatlaşdırılmışdır.

**1.7. Elektron xidmətin icra müddəti:** Xidmətin icra müddəti *istifadəçi tərəfindən tələb olunan məlumatların* informasiya sistemində emalı müddətindən asılıdır.[3]

**1.8. Elektron xidmətin göstərilməsinin nəticəsi:** *Vətəndaşların ərizə, şikayət və təkliflərinin elektron qaydada qəbulundan ibarətdir.*[4]

## 2. Elektron xidmətin göstərilməsinin həyata keçirilməsi

**2.1. Elektron xidmətin növü:** interaktiv

**2.2. Elektron xidmət üzrə ödəniş:** ödənişsiz

**2.3. Elektron xidmətin istifadəçiləri:** fiziki və hüquqi şəxslər.

**2.4. Elektron xidmətin təqdim olunma yeri:** http://www.e-gov.az; http://exidmet.justice.gov.az

**2.5. Elektron xidmət barədə məlumatlandırma:**

İnternet ünvanı: http://www.e-gov.az ; http://www.justice.gov.az

Elektron poçt: contact@justice.gov.az ; notvva@justice.gov.az

Telefon: (+99412) 430 09 77 / (+99412) 404 42 81

**2.6. Elektron xidmətin göstərilməsi üçün tələb olunan sənədlər və onların təqdim olunma forması:** Elektron xidmətin göstərilməsi üçün elektron poçt ünvanı tələb olunur.

**Qeyd:** Ədliyyə Nazirliyinə elektron müraciət üçün elektron ərizə forması onlayn qaydada doldurularaq göndərilir.

## 3. Elektron xidmətin göstərilməsi üçün inzibati prosedurlar

**3.1.** İnteraktiv növlü elektron xidmətlər istifadəçilər üçün daim açıqdır və müraciət edilməsi hər hansı qaydada məhdudlaşdırıla bilməz.

**3.2. İnteraktiv elektron xidmətlər üçün sorğu:**

**3.2.1. Sorğunun formalaşdırılması:** İstifadəçi müvafiq hissədən ərizə, şikayət və ya təklifi seçib, elektron poçt ünvanını və müraciətin mətnini daxil edərək sorğu göndərir.

**3.2.2. Sorğunun qəbulu:** Sorğu qəbul olunduqdan sonra istifadəçinin elektron ünvanına müraciəti ilə əlaqədar müvafiq cavab məktubu göndərilir.

**3.3. Elektron xidmətin göstərilməsi və ya imtina edilməsi:**

**3.3.1. Sorğunun yerinə yetirilməsindən imtina halları:** *Müraciət anonim olduqda, habelə istifadəçi,* elektron poçt ünvanını daxil etmədikdə və ya səhv daxil etdikdə sorğu qəbul olunmur.[5]

**3.3.2. Sorğunun qəbulu:** İstifadəçi tərəfindən müvafiq məlumatlar düzgün daxil edildikdə sorğu qəbul olunur.

**3.4. Sorğunun icrası:** İstifadəçi elektron xidmət vasitəsilə ərizə, şikayət və təklifini elektron qaydada Ədliyyə Nazirliyinə göndərə bilər.

**3.4.1. Ardıcıl hər bir inzibati əməliyyat, o cümlədən məsul şəxs haqqında məlumat:** Ədliyyə Nazirliyinə elektron müraciətin göndərilməsi.

İnzibati əməliyyatın həyata keçirilməsinə Ədliyyə Nazirliyinin aidiyyatı qurumu məsuldur.

**3.4.2. Hər bir inzibati əməliyyatın məzmunu, yerinə yetirilmə müddəti və ya maksimal yerinə yetirilmə müddəti:**

Ədliyyə Nazirliyinə elektron müraciətin göndərilməsi: İstifadəçi müvafiq sahələrə elektron poçt ünvanını, müraciətin məzmununu daxil edir, müraciətin formasını seçib göndər düyməsini vuraraq sorğunu göndərir. Proses istifadəçinin tələb olunan məlumatları daxil etməsindən və bunun informasiya sistemində emalı müddətindən asılıdır.

**3.4.3. İnzibati əməliyyatda iştirak edən digər *dövlət qurumları* haqqında**[6]

**məlumat:** Yoxdur

**3.4.4. Hər bir inzibati prosedurun nəticəsi:**

Ədliyyə Nazirliyinə elektron müraciətin göndərilməsi: Müraciətin nəticəsi barədə istifadəçinin elektron poçt ünvanına müvafiq cavab məktubu göndərilir.

**3.5. Elektron xidmətin yerinə yetirilməsinə nəzarət:** Elektron xidmətin yerinə yetirilməsinə nəzarəti Azərbaycan Respublikası Ədliyyə Nazirliyi həyata keçirir.

**3.5.1. Nəzarətin forması**: Daxil olan müraciətlərin avtomatlaşdırılmış rejimdə təşkil olunmuş mütəmadi monitorinqi.

**3.5.2. Nəzarətin qaydası:** Monitorinq nəticəsində müraciətlərin qəbulu, cavablandırılmasının müddəti və prosesin tamlığı izlənilir, baş verən nöqsanlar barədə hesabatlar tərtib olunur. Həmin hesabatlar sistemin fəaliyyətinə məsul olan şəxslər tərəfindən daim izlənilir.

**3.6. Elektron xidmətin göstərilməsi üzrə mübahisələr:** Elektron xidmətlərin göstərilməsinə görə Ədliyyə Nazirliyi məsuliyyət daşıyır.

**3.6.1. İstifadəçinin şikayət etmək hüququ haqqında məlumat:** İstifadəçi elektron xidmətlə bağlı onu razı salmayan istənilən məsələ barədə yuxarı səlahiyyətli orqana (vəzifəli şəxsə) inzibati qaydada və ya məhkəməyə şikayət edə bilər.

***3.6.2. Şikayətin əsaslandırılması və baxılması üçün lazım olan informasiya:*** *Şikayət kağız üzərində və elektron qaydada tərtib oluna bilər. Kağız üzərində şikayət Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin poçt ünvanına, elektron şikayət isə bu reqlamentin 2.5-ci bəndində göstərilən poçt ünvanına göndərilməlidir. Şikayətdə fiziki şəxsin adı, atasının adı, soyadı, ünvanı, poçt və ya elektron poçt ünvanı, yaxud işlədiyi yer, müraciət edən hüquqi şəxs olduqda adı, hüquqi ünvanı (mövcud olduqda elektron poçt ünvanı) göstərilməlidir*[7]

**3.6.3. Şikayətin baxılma müddəti:** Şikayətə "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 78-ci maddəsində müəyyən olunmuş müddətdə baxılır.

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

**1.** 31 oktyabr 2017-ci il tarixli **22-N** nömrəli Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Kollegiyası Qərarı

## QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 31 oktyabr 2017-ci il tarixli **22-N** nömrəli Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Kollegiyası Qərarı ilə "Ədliyyə Nazirliyinə elektron müraciət üzrə inzibati reqlament"in 1.2-ci bənd yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~Vətəndaşların ərizə, şikayət və təkliflərinin Ədliyyə Nazirliyinə elektron qaydada göndərilməsindən ibarətdir.~~

[2] 31 oktyabr 2017-ci il tarixli **22-N** nömrəli Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Kollegiyası Qərarı ilə "Ədliyyə Nazirliyinə elektron müraciət üzrə inzibati reqlament"in 1.3-cü bənd yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~**Elektron xidmətin göstərilməsinin hüquqi əsası:**~~

~~- "İnformasiya əldə etmək haqqında" 30 sentyabr 2005-ci il tarixli 1024-IIQ nömrəli Azərbaycan Respublikasının Qanununun 6-cı və 10-cu maddələri;~~

~~- Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 391 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə"nin 9.56-cı bəndi;~~

~~- "Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 23 may tarixli 429 nömrəli Fərmanının 2-ci hissəsi.~~

~~- Nazirlər Kabinetinin 24 noyabr 2011-ci il tarixli 191 nömrəli Qərarı ilə təsdiq edilmiş "Mərkəzi icra hakimiyyəti orqanları tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları" və "Elektron xidmət növlərinin Siyahısı"nın 3.13-cü bəndi.~~

[3] 31 oktyabr 2017-ci il tarixli **22-N** nömrəli Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Kollegiyası Qərarı ilə "Ədliyyə Nazirliyinə elektron müraciət üzrə inzibati reqlament"in 1.7-ci bənddə "**istifadəçinin tələb olunan məlumatları daxil etməsindən və bunun**" sözləri "**istifadəçi tərəfindən tələb olunan məlumatların"** sözləri ilə əvəz olunmuşdır.

[4] 31 oktyabr 2017-ci il tarixli **22-N** nömrəli Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Kollegiyası Qərarı ilə "Ədliyyə Nazirliyinə elektron müraciət üzrə inzibati reqlament"in 1.8-ci bənd yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~Elektron xidmətin göstərilməsi zamanı vətəndaşlar ərizə, şikayət və təkliflərini elektron qaydada Ədliyyə Nazirliyinə göndərirlər.~~

[5] 31 oktyabr 2017-ci il tarixli **22-N** nömrəli Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Kollegiyası Qərarı ilə "Ədliyyə Nazirliyinə elektron müraciət üzrə inzibati reqlament"in 3.3.1-ci yarımbənddə "**İstifadəçi,**" sözü "**Müraciət anonim olduqda, habelə istifadəçi**" sözləri ilə əvəz olunmuşdır.

[6] 31 oktyabr 2017-ci il tarixli **22-N** nömrəli Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Kollegiyası Qərarı ilə "Ədliyyə Nazirliyinə elektron müraciət üzrə inzibati reqlament"in 3.4.3-cü yarımbənddə "**dövlət orqanları**" sözləri "**dövlət qurumları**" sözləri ilə əvəz edilmişdir.

[7] 31 oktyabr 2017-ci il tarixli **22-N** nömrəli Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Kollegiyası Qərarı ilə "Ədliyyə Nazirliyinə elektron müraciət üzrə inzibati reqlament"in 3.6.2-ci yarımbənd yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

**3.6.2. Şikayətin əsaslandırılması və baxılması üçün lazım olan informasiya:** Şikayət ərizəsi "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 74-cü maddəsinə uyğun olmalıdır